1 -3_Layout 1 15.01.2022 16:13 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 1 (615)

17 yanvar 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Azərbaycan dünyanın siyasi və hərbi gücünə çevrilir

## Vətən müharibəsində qazanılan Zəfər, eləcə də Prezident İlham Əliyevin müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə keçirdiyi çoxsaylı görüşlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsində böyük rol oynadı



Ötən il ölkəmiz üçün bir sıra nailiyyətlərlə yadda qaldı. Ətalətdə deyil, hərəkətdə olan diplomatiyamız Qafqazdan dünyaya təsir edəcək gücə çevrildiyini sübut etdi.

Vətən müharibəsində qazanılan Zəfər, eləcə də Prezident İlham Əliyevin müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə keçirdiyi çoxsaylı görüşlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsində böyük rol oynadı. Bu dövrdə nəinki beynəlxalq əlaqələr daha da genişləndirildi, həmçinin, regional və dünya miqyasında milli maraqların effektiv şəkildə təmin edilməsi istiqamətində qətiyyətli addımlar atıldı.

Ötən il yanvarın 11-də ilk xarici səfərini Rusiya Federasiyasına edən dövlət başçımız işgüzar xarakter daşıyan bu səfərdə Rusiya prezidenti və Ermənistanın baş naziri ilə görüşdü. Bu görüş Azərbaycanın 44 günlük müharibədəki Zəfərinin hüquqi-siyasi təsdiqi olan 10 noyabr Bəyanatında yer alan məsələlərdən irəli gələn prioritetlərlə bağlı idi.

Moskvadakı görüş də üçtərəfli Bəyanatın imzalanması, iqtisadi və regional əməkdaşlıq məsələlərini nəzərdə tutan ikinci bəyanatın qəbul olunması, regionun gələcəyinə böyük perspektivlər vəd edirdi.

Keçirilən görüş Azərbaycan-Rusiya münasibətlərinin hazırda strateji səviyyəyə yüksəldiyinin göstəricisidir.

Prezidentin ötən ilin iyulunda Rusiya Federasiyasına səfəri ölkələrimiz arasında siyasi-iqtisadi münasibətlərin qonşuluq və dostluq prinsiplərinə söykənərək daha da dərinləşdiyini göstərdi.

Bu görüşdə də bütün kommunikasiyaların, o cümlədən, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat dəhlizinin - Zəngəzur dəhlizinin açılması məsələsi prioritet idi. Və tərəflər vahid mövqedən çıxış edərək bəyanatın müddəalarının yerinə yetirilməsində qətiyyət nümayiş etdirdilər.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşü də mühüm hadisələrlə yadda qaldı. Belə ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimi keçirildi, şuranın adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, "Türk dünyasına baxış - 2040" sənədinin qəbulu ilə bağlı qərarlar qəbul olundu. VIII Zirvə görüşünün ən mühüm hadisəsi isə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi oldu.

Bu səfər zamanı Prezident İlham Əliyev Qırğız Respublikasının Prezidenti Sadır Japarovla ayrıca görüşüb, iki ölkə arasında iqtisadi-ticari münasibətlərin genişləndirilməsi, investisiyalar, energetika, nəqliyyat və digər sahələrdə, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin gücləndirilməsi məsələlərini müzakirə etdi.

Noyabrın 26-da Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə Soçi şəhərinə işgüzar səfəri zamanı Ermənistanın baş naziri Nikol Paşinyanla da görüşdü.

Görüşün əsas müzakirə mövzusu 2020-ci il noyabr Bəyanatının, həmçinin, regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası haqqında 2021-ci il 11 yanvar tarixli Bəyanatın yerinə yetirilməsinin gedişi barədə oldu. Prezident ölkəmizin haqlı mövqeyini bir daha bəyan etdi.

Soçi görüşü vacib razılaşmaların əldə olunması ilə nəticələndi.

İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Zirvə Toplantısı, Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammiti, NATO-nun Baş katibi Yens Stoltenberqlə, Aİ Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanla görüş də Prezident İlham Əliyev diplomatiyasının ölkəmizin milli maraq və mənafelərinin müdafiəsinə köklənməsini bir daha özündə ehtiva edirdi.

Beləliklə, 2021-ci ildə Prezident İlham Əliyev 7 dəfə xarici səfər edib: 4 dəfə Rusiyaya, 1 dəfə Türkiyəyə, 1 dəfə Türkmənistana və 1 dəfə Belçikaya. Bu səfərlər zamanı Prezident İlham Əliyev 12 ölkənin prezidenti (Türkiyə, Pakistan, Rusiya, Qırğız Respublikası, Türkmənistan, İran, Qazaxıstan, Tacikistan, Ukrayna, Moldova, Fransa, Özbəkistan), 3 beynəlxalq təşkilatın rəhbəri (Türk Şurası, Aİ, NATO), 2 ölkənin baş naziri (Macarıstan və Ermənistan) ilə görüşüb. Bu səfərlər və görüşlər Azərbaycanın xarici siyasətinin kifayət qədər dolğun, düşünülmüş və çoxşaxəli olduğunu göstərir.

**DİN-in Mətbuat xidməti**

# Nazir V.Eyvazov Daxili Qoşunların Baş İdarəsində müşavirə keçirib




**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların Baş İdarəsində 2021-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, Dövlət başçısının ordu quruculuğuna, o cümlədən, Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili İşlər Nazirliyinin və onun təşkilati strukturu olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində rolunu və xidmətlərini cənab Prezidentin hər zaman yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir, onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan xidməti vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi tələb edir.



Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov ötən hesabat ilində qoşunların fəaliyyətini yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib. Eyni zamanda, əmin olduğunu bildirib ki, şəxsi heyət Ali Baş Komandanın yüksək diqqət və qayğısına sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.

**DİN-in Mətbuat xidməti**

2 - 1_Layout 1 15.01.2022 16:16 Page 1



# 20 YANVAR FACİƏSİ AZƏRBAYCAN XALQININ MÜBARİZLİYİNİ DÜNYAYA NÜMAYİŞ ETDİRDİ

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda sovet ordusu tərəfindən dinc əhaliyə qarşı dəhşətli, kütləvi qırğın hadisəsi törədildi. Bu qanlı hadisənin törədilməsində əsas məqsəd öz haqlı tələblərini irəli sürən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola, milli qürurumuzu qıra bilmədi. Xalqın başı-






na gətirilən bu cinayət sovet imperiyasının iç üzünü göstərdi.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna fövqəladə vəziyyət elan edilmədən yeridildi, dinc əhaliyə divan tutuldu, yüzlərlə insan qətlə yetirildi, yaralandı, itkin düşdü.

Ümumilikdə, Bakıda və respublikanın rayonlarında 131 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz olaraq həbs edildi. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin, təcili tibbi yardım işçiləri və milis nəfərləri də var idi.

Xalq o günlərdə böyük bir həqiqəti - meydanda həqiqi liderin olmamasını bütün mahiyyəti ilə dərk etdi. Həmin günlərdə Heydər Əliyevin - qüdrətli liderin respublikada yoxluğu aydın şəkildə hiss olundu. Bakıda olmasa da, xalqının səsinə hər kəsdən əvvəl səs verən də məhz Heydər Əliyev oldu. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəldi, təcavüzə, faciəni törədənlərə, şəxsən M.Qorbaçova kəskin etirazını bildirdi, eləcə də qoşunların Bakıdan çıxarılmasını qətiyyətlə tələb etdi.

Əslində, Ulu Öndər Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı faciəyə verilən ilk siyasi qiymət idi.

Ümummilli Lider hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı.

Bu il xalqımız 20 Yanvar hadisələrinin 32-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını, onların əziz xatirəsini məhəbbətlə, böyük ehtiramla xatırlayır. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şanlı-şərəfli simvoluna çevrilib. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, mübarizliyimizin şanlı səhifəsi kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır.






**kapitan Xədicə Hacızadə**

## DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU DAVAM EDİR

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, yanvar ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilir. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, da-





şınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" əmri ilə çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.

Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə tanış olmaq məqsədilə qoşunların 25031 saylı hərbi hissəsinin komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyevlə söhbət etdim. O, bildirdi ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətirilənədək müvafiq qaydada hazırlanması Daxili Qoşunlar komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir. Onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumunun yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilir. Bunun üçün ilk olaraq, mənəvi-psixoloji hazırlıq planları hazırlanır və hərbi hissə komandiri tərəfindən təsdiq olunur.

Qəbul məntəqəsinə daxil olan çağırışçılar hərbi həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən onlarla söhbətlər aparılır. Söhbət zamanı çağırışçıların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması ətraflı öyrənilir. Həmçinin, onlara hərbi xidmətin üstünlükləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilir. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır və hərbi hissəyə təqdim olunur.

Daha sonra çağırışçılar növbə ilə həkim-terapevt, həkim-stomatoloq, həkim ekspert-psixonevroloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunurlar, ümumi bədən baxışı və sonda profilaktik flüoroqrafik müayinə keçirilir.

Çağırışçılar tibbi müayinədən keçirildikdən sonra koronavirus pandemiyası ilə əlaqədar olaraq TƏBİB-in həkimləri tərəfindən bütün çağırışçılardan analizlər götürülür. Müayinələrdən keçən çağırışçılar barədə hərbi həkim komissiyası tərəfindən rəylər verilir və onlar yalnız praktiki sağlam hesab olunarlarsa, hərbi xidmətə qəbul edilirlər.

Bununla yanaşı, çağırışçıların əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunmaları da daim diqqətdə saxlanılır.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə bölük və taqım komandirləri tərəfindən tərbiyəvi söhbətlər aparılır, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilir.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilməkdədir.

**baş leytenant Nigar Ağayeva**

## XÜSUSİ TƏYİNATLI DƏSTƏLƏR ÖTƏN İLİ UĞURLA BAŞA VURUB

Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsi tərəfindən 2021-ci il ərzində Daxili Qoşunların xüsusi təyinatlı dəstələrinin hazırlığı, idarəetmənin vəziyyəti, döyüş təliminin planlaşdırılması, müvafiq tədris proqramının icrası, dəstənin şəxsi heyətinin xüsusi təlim atış çalışmaları üzrə praktiki atəş qabiliyyəti, fiziki hazırlığı, alpinist hazırlığı, eləcə də hərbi topoqrafiya, xüsusi taktiki hazırlıq üzrə bilik və bacarıqları yoxlanılıb. Qəflətən qarşıya çıxan tapşırıqların yerinə yetirilməsi zamanı düzgün, çevik və mütəşəkkil fəaliyyətin təşkili üzrə dəstə komandirlərinə praktiki köməklik göstərilib.





Bu barədə məlumat verən şöbənin baş zabiti polkovnik-leytenant Tural Novruzov bildirdi ki, il ərzində zoğalı beret uğrunda peşə hazırlığı sınaqları keçirilib. Hərbi hissələr üzrə sınaqlara 35 nəfər hərbi qulluqçu buraxılıb, onlardan 22 nəfəri sınaqları müvəffəqiyyətlə başa vurub və zoğalı beret daşıma hüququ qazanıb. İşğal edilmiş torpaqlarımızın düşməndən azad edilməsi üzrə döyüş əməliyyatlarında iştirak etmiş və xidməti-vəzifə borclarını layiqincə yerinə yetirərək mərdlik və şücaət göstərmiş 78 nəfər hərbi qulluqçuya daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının müvafiq əmrilə zoğalı beret daşıma hüququ verilib.



İl ərzində aparılan yoxlamalar onu deməyə əsas verir ki, ümumilikdə, xüsusi təyinatlı dəstələr qarşıda duran tapşırıqların icrasına hazırdır, dəstələrə rəhbərlik edən dəstə komandirlərinin iş üslubu, idarəçilik fəaliyyəti qənaətbəxşdir. Dəstələrdə tabelik münasibətlərinə və hərbi nəzakət qaydalarına əməl olunur, silah və əmlakların qorunub saxlanılması təmin edilir.

Son olaraq, baş zabit ötən il ərzində 20 nəfərdən çox hərbi qulluqçunun Türkiyə Respublikasında müxtəlif kurslara göndərildiyini, onların kursu müvəffəqiyyətlə başa vurduqlarını dedi: "Bu iş hazırda da davam etdirilir. Daha 10 nəfər hərbi qulluqçunun Foça Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığına biliklərinin artırılması, bacarıqlarının təkmilləşdirilməsi üçün göndərilməsi planlaşdırılır".

2021-ci tədris ili ərzində xüsusi təyinatlı dəstələrin qiymətləndirilməsi üzrə aparılmış yoxlamaların nəticələrinə görə, bal göstəricisi daha yaxşı olan 99713 saylı hərbi hissə I, müvafiq olaraq 16075 və 17074 saylı hərbi hissələr isə II və III yerləri tutublar.

O, həmçinin, dəstələrin təlim prosesinin daha da təkmilləşdirilməsi məqsədilə hərbi dağçılıq ləvazimatlarının istifadəsi üzrə yeni təlimatın hazırlanmaqda olduğunu qeyd etdi: "Bu təlimat hərbi dağçılıq sahəsində peşəkarlığın artırılmasına müsbət təsir göstərəcək. Bundan əlavə, 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsi üçün Jandarm Komando Özəl Asayiş Komandanlığının xüsusi əməliyyat taborlarının təlim-tədris proqramına uyğunlaşdırılaraq müasir tələblərə cavab verən yeni tədris proqramı işlənib hazırlanıb və daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı tərəfindən təsdiq edilib. Hazırda həmin tədris proqramından istifadə edilir və müsbət nəticələri özünü göstərməkdədir".

**gizir Ariz Aslanov**

3_Layout 1 15.01.2022 16:17 Page 1



*Şəhidlərimiz*

# SƏRRAST ATƏŞİ İLƏ DÜŞMƏNİN BAŞINA OD-ALOV YAĞDIRIRDI...

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Şəhid olmuş və yaralanmış cəsur oğullarımızın qanı və canı bahasına yazılan bu tarix əbədi yaşayacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vurğuladığı kimi: “Bizim vətənpərvərlik ruhumuz, qəhrəmanlığımız, Vətənə olan bağlılığımız, fədakarlığımız bütün dünyada Azərbaycan Ordusu, Azərbaycan xalqı haqqında dəqiq təsəvvür yaratdı. Göstərdi ki, biz böyük xalqıq, göstərdi ki, biz özümüzə məxsus olan torpaqları nəyin bahasına olursa-olsun azad edən xalqıq”.

Torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksələn vətənpərvər oğullarımızdan biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının cəsur hərbi qulluqçusu baş çavuş Abbasov Elvin Şamil oğludur.

Baş çavuş Elvin Abbasov 1992-ci il mayın 6-da Bərdə rayonunun Hacılı kəndində anadan olub. Şamil Abbasovun və Sevil Abbasovanın böyüdüb tərbiyə etdikləri iki övladdan (Elvin və Elçin) biri, həmçinin, ailənin ilki idi.

Elvin hələ kiçik yaşlarından olduqca vətənpərvər, eyni zamanda, düşmənə sonsuz nifrət ruhunda tərbiyə almışdı. Bunun da əsas səbəbi erməni işğalı nəticəsində Abbasovlar ailəsinin, digər soydaşlarımız kimi, taleyin amansız hökmü ilə yaşadıqları məcburi köçkünlük həyatının ağrı-acısı idi. Əslən keçmiş Ağdərə rayonunun Umudlu kəndindən (hazırda kənd Tərtər rayonunun inzibati ərazi vahidinə daxildir) olan valideynləri azğınlaşmış erməni qəsbkarlarının doğma yurd yerlərimizi ard-arda işğal etmələri və daha da genişlənən hücumları səbəbindən 1992-ci ilin fevral ayının 28-də Bərdə rayonunun Hacılı kəndinə pənah gətirməli olmuşlar. Elvin və ondan iki yaş kiçik olan qardaşı Elçin məhz bu kənddə dünyaya göz açıb, min bir əzab-əziyyətlə böyüyüb boya-başa çatmışlar.

Burada bir məqamı da qeyd edim ki, cəsur silahdaşımızın görmək arzusu ilə yaşadığı ata-baba yurdu olan Umudlu hələ XX əsrin əvvəllərində Cavanşir qəzasında erməni-daşnak qüvvələri tərəfindən soyqırıma məruz qalmış kəndlərimizdən biri olub. Müxtəlif tarixi qaynaqlarda Umudlu qətliamı kimi adı çəkilən bu dəhşətli faciə məhz 1905-ci ilin dekabr ayının 26-da, olduqca sərt keçən soyuq bir gecədə törədilib. Tariximizin ən qanlı hadisələrindən biri hesab olunan bu qətliam barədə o dövrün mətbuatı, eləcə də yazıçı Məmməd Səid Ordubadi geniş məlumat verib.

Ailəsinin verdiyi məlumata görə, Elvin orta təhsilinin 9-cu sinfədək olan hissəsini



şəhid Mehman İsbərov adına Hacılı kənd ümumi orta məktəbində alıb, qalan hissəsini isə şəhid Səməd Xudaverdiyev adına Kürdborakı kənd tam orta məktəbində davam etdirib. Hələ orta məktəbin doqquzuncu sinfində oxuyarkən idmanın boks növü ilə məşğul olub, fiziki hazırlıq məşğələlərinə xüsusi maraq göstərib. Bundan əlavə, atasına kömək etmək məqsədilə tez-tez onun dülgər sexinə üz tutan Elvin həqiqi hərbi xidmətə çağırılanadək burada çalışaraq dülgərlik sənətini öyrənib. Lakin uşaq yaşlarından hərbi formaya böyük marağı olduğundan orta məktəbi bitirdikdən sonra hərbi xidmətə getməyə qərar verib.

Müddətli həqiqi hərbi xidmətini 2010-cu ilin iyul ayından 2012-ci ilin yanvar ayınadək Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində keçib. O zaman həmin hərbi hissənin komandiri 2020-ci ilin iyul döyüşlərində şəhidlik zirvəsinə ucalan Azərbaycanın Milli Qəhrəmanı general-mayor Polad Həşimov olub. Atasının da vurğuladığı kimi, Elvin qəhrəman şəhid generalımızın komandiri olduğu hərbi hissədə, məhz onun tabeliyində əsgər kimi xidmət etməsindən hər zaman qürur hissi duyub. Onun həlak olması xəbərini eşidəndə isə bərk sarsılıb. Bu barədə söhbət düşəndə: “nə olursa-olsun, şəhid generalımızın intiqamını mütləq almalıyıq” – deyirdi. Buna görə də Vətən müharibəsi başlayanda Daxili Qoşunların cəsur xüsusi təyinatlısı kimi döyüşlərə qatılan Elvinin ən böyük arzusu qəhrəman generalımızın timsalında bütün şəhidlərimizin qisasını mənfur düşməndən almaq olub.

Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbçi peşəsinə olan böyük marağı səbəbindən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2013-cü ilin sentyabr ayında Daxili Qoşunların 12318 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunan Elvin Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb. 2014-cü ilin dekabr ayından etibarən hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən baş çavuş E.Abbasov əvvəlcə atəş təminatı qrupunda AQS-17 qumbaraatan yarımqrupunda heyət nəfəri, AQS-17 qumbaraatan yarımqrupunda tuşlayıcı, 2017-ci ilin sentyabr ayından şəhidlik məqamına yüksəldiyi günədək isə xüsusi həmlə qrupunda pulemyotçu kimi xidməti-vəzifə borcunu ləyaqətlə yerinə yetirib.

Vaxtilə baş çavuş E.Abbasovla birgə 12318 saylı hərbi hissənin “Yarasa” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsinin tərkibində Vətən müharibəsində iştirak etmiş gizir Şiraz Həsənovun və çavuş Səid Həmzəyevin qeyd etdikləri kimi, Elvin istər bir yoldaş, istərsə də əsl xüsusi təyinatlı kimi hər zaman öz müsbət keyfiyyətlərilə kollektiv arasında böyük hörmət və nüfuz qazanıb. Hərbçi yoldaşlarının xatirələrində sərrast atıcı, iradəli, fiziki hazırlıqlı, intizamlı hərbi qulluqçu, qorxubilməz, vətənpərvər döyüşçü, eyni zamanda, böyük-kiçik yeri bilən, olduqca sadə, hər zaman dostluqda və yoldaşlıqda möhkəm, ailəcanlı, böyüklərin öyüd-nəsihətlərinə dəyər verən bir insan olaraq qalıb. Məhz buna görə də xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidmətilə fərqlənən cəsur hərbi qulluqçumuz hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsi iştirakçısı mayor Elgün Mirzəliyev baş çavuş E.Abbasovun onun rəhbəri olduğu qrupun tərkibində Şuşa istiqamətində gedən döyüşlərdə əsl cəsurluq nümunələri göstərdiyini dedi. Bildirdi ki, dəstə əvvəlcə Cəbrayıl, Füzuli rayonlarında mövqelərimizin müdafiəsində dayanıb, burada düşmənin diversiya-kəşfiyyat qruplarının təxribatlarının qarşısının alınması üzrə döyüş tapşırıqlarını yerinə yetirib. Oktyabrın 31-də Xocavənd rayonunun Hadrut qəsəbəsinə gələn dəstənin şəxsi heyəti burada ayrı-ayrı qrupların tərkibinə bölünərək, avtomobillərlə Şuşa istiqamətində hərəkətə başlayıb. O, bir müddət sonra kolon düşmən artilleriyasının atəşinə məruz qaldığı üçün ayrı-ayrı qrupların tərkibində piyada Şuşa istiqamətində hərəkəti davam etdirməli olduqlarını söylədi: “Elvin mənim komandiri olduğum qrupun tərkibində idi. Olduqca mərd, qorxu hissi olmayan, əsl vətənpərvər xüsusi təyinatlı kimi döyüşlərə qatılmışdı. Pulemyotçu kimi öz sərrast atəşi ilə düşmənin başına od-alov yağdırırdı”.



**4 noyabr 2020-ci il...** Laçın-Şuşa istiqamətində gedən döyüşlərdən biri Elvinin son döyüşü oldu. Onunla birgə bu döyüşlərdə iştirak etmiş çavuş Vasif Həsənovun (hazırda Biləsuvar RPŞ-nin post-patrul xidmətində polis serjantı kimi xidmətini davam etdirir) sözlərinə görə, tərkibində Elvinin də vuruşduğu xüsusi təyinatlılardan ibarət qrupun şəxsi heyəti digər qrupların cəsur döyüşçülərilə birgə ermənilərin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, Laçın-Şuşa yolu üzərindəki yüksəklikdə yerləşən mühüm mövqelərini ələ keçirir. Beləliklə, Şuşaya gedən yol tam olaraq nəzarətə götürülür. Lakin bir müddət sonra düşmən snayperinin gülləsinə tuş gələn baş çavuş E.Abbasov gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır.

Bu hərbi əməliyyat zamanı, həmçinin, düşmənin döyüşçülərimizin yerləşdikləri yüksəkliyi üç tərəfdən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutması nəticəsində Elvinlə birgə “Yarasa” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin 6 nəfər hərbi qulluqçusu – baş leytenant Təhmasib Mustafayev, gizir Emil İsgəndərov, baş çavuşlar Ruslan Sadıqov, Şahlar Məmmədov, əsgərlər* Tural Bayramlı və Fərid Vəliyev şəhid olub, 13 nəfər xüsusi təyinatlımız isə yaralanıb.

Çavuş V.Həsənov yaxın dostu olmuş Elvinin şəhid olmamışdan iyirmi dəqiqə əvvəl söylədiyi fikirlərini müharibənin ən ağrılı xatirəsi kimi heç zaman unutmayacağını dedi: “Şəhid olacağını sanki əvvəlcədən hiss etmişdi. Üzünü bizə tutub, “əgər şəhid olsam, övladlarıma mənim necə bir döyüşçü, necə bir qəhrəman olduğumu deyərsiniz. Bir ata kimi onları sevdiyimi, onlara necə qayğı göstərmək istədiyimi mütləq xatırladarsınız” – deyə sakit bir şəkildə sözlərini bitirdi. Tez-tez övladlarını düşünərdi. Əsl yoldaş, eyni zamanda, qayğıkeş ailə başçısı idi”.

Şəhid hərbi qulluqçumuz 2020-ci il noyabrın 11-də Bərdə rayonunun Hacılı kəndinin qəbiristanlığında dəfn olunub. 11 noyabr 2020-ci il tarixdə Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən tərtib edilən ölüm haqqında şəhadətnamədə igid silahdaşımızın 08.11.2020-ci ildə döyüş meydanında, hərbi əməliyyat nəticəsində odlu silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olduğu yazılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Abbasov Elvin Şamil oğlu ölümündən sonra “Vətən uğrunda” və “Şuşanın azad olunmasına görə” medalları ilə təltif edilib.

Məlumat üçün bildirək ki, Elvinin ailə üzvlərinin xatirələri əsasında “Real TV”nin “YouTube” internet portalı vasitəsilə yayımlanan “Düşmənə od saçan xüsusi təyinatlımız” adlı süjetdə şəhid hərbi qulluqçumuzun gənc nəslə nümunə olan həyat və döyüş yolu işıqlandırılıb.

2016-cı ilin iyul ayında Nərgiz xanımla ailə həyatı qurmuş şəhid hərbi qulluqçumuzun Aylin və Sevil adlı iki övladı yadigar qalıb.

“Oğlumla, o cümlədən, Vətən uğrunda canını qurban vermiş bütün qəhrəman şəhidlərimizlə fəxr edir, qürur duyuram. Allahdan hər birinə rəhmət diləyirəm” – deyən şəhid atası Şamil Abbasovun yeganə arzusu isə igid silahdaşımızın xatirəsinin əbədiləşdirilməsidir.

Vətən uğrunda canını fəda edən Elvin kimi igid oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# ÇANAQÇI UĞRUNDA DÖYÜŞDƏ YARALANAN MƏTİN XÜSUSİ TƏYİNATLI...

Qazilər xalqımızın say-seçmə oğullarıdır. Düşmən tapdağından azad edilən müqəddəs torpaqlarımıza onların qanı töküləb.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında xidmət etmiş və erməni işğalçılarına qarşı vuruşmuş ehtiyatda olan baş çavuş Zaxmayev Əfqan Musa oğlu Vətən müharibəsi qazisidir. O, 1992-ci il noyabrın 13-də Balakən rayonunun Poştbinə kəndində anadan olub. Musa Zaxmayev və Gülafət Zaxmayevanın böyüdərək boya-başa çatdırdıqları dörd övladdan biridir. Valideynləri, bacısı və qardaşları rayonda yaşayırlar. Onunla Bakının Biləcəri qəsəbəsindəki mənzilində görüşərək söhbət etdim.

Əfqanın bildirdiyinə görə, babaları Tinov Zaxmayev və İsa İsayev II Dünya müharibəsində iştirak edərək, müxtəlif cəbhələrdə faşistlərə qarşı vuruşublar. Qazi söylədi ki, Birinci Qarabağ müharibəsində atasının əmisi oğlu Carulla Zaxmayev könüllü olaraq torpaqlarımızın müdafiəsinə yollanıb. O da qazidir.

Poştbinədə yerləşən 1 saylı tam orta məktəbin məzunu olan Əfqan yeniyetmə çağından idmanın kikboksinq növü ilə məşğul olub. Bu növ üzrə rayonlararası turnirdə 1-ci yeri tutub. Bundan əlavə, məktəb illərində çoxnövçülük üzrə yarışlara qatılaraq öz məharətini sınayıb. Sonrakı dövrdə armrestlinq idman növünə daha çox meyil göstərib.

Özünün dediyinə görə, hələ məktəbdə oxuduğu vaxtdan hərbçi olmağı arzulayıb, hərbi formaya onda rəğbət yaranıb. Hərbçilər barədə filmləri maraqla izləyib.

2011-ci ilin yanvar ayından 2012-ci ilin iyul ayınadək Əfqan Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətli həqiqi hərbi xidmət keçib. Sərhədçi olaraq “kiçik çavuş” hərbi rütbəsinədək yüksəlib. Sərhəd Qoşunlarından tərxis olunduqdan sonra bir müddət mülki sahədə işləyib. Ancaq bir neçə ay sonra hərbi xidmətə qayıtmaqla bağlı qəti qərar verib.

2013-cü ilin yanvar ayının 30-da Əfqan Daxili Qoşunların 25031 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsində xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunda atıcı vəzifəsinə təyin edilib. Həmin bölmədə xidmət zamanı xüsusi vasitələrin tətbiqi qrupunda atıcı vəzifəsi də ona həvalə olunub. Qeyd edim ki, o, 2014-cü ilin aprel-may aylarında keçirilən xüsusi təyinatlıların hazırlığı kursunu müvəffəqiyyətlə bitirib. 2014-cü ilin iyul ayından 2019-cu ilin iyun ayınadək 16077 saylı hərbi hissədə xidmət keçib. Xüsusi təyinatlı dəstədə atəş təminatı və xüsusi həmlə qruplarında heyət nəfəri, qumbaraatan, atıcı, atıcı-qumbaraatan vəzifələrinin öhdəsindən bacarıqla gəlib. 2019-cu ilin iyun ayından 67987 saylı hərbi hissənin, avqust ayından isə 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstələrinə keçirilərək, xüsusi həmlə və xüsusi əməliyyat qruplarında atıcı, atıcı-qumbaraatan vəzifələrində xidmətini davam etdirib. Ümumilikdə, hərbi xidməti dövründə komandanlığın etimadını doğruldaraq dəfələrlə mükafatlandırılıb.

2013-cü ilin iyun ayında paytaxtın Nərimanov rayonu ərazisində baş vermiş bədbəxt hadisə zamanı elektrik cərəyanı vurmuş və huşsuz vəziyyətdə olan Sahib adlı 9 yaşlı oğlanın həyatı Əfqanın çevik hərəkətləri nəticəsində xilas olunub.

Hərbi xidmətdə olarkən Əfqan qardaş Türkiyə Respublikasına ezam edilərək, 2020-ci ilin yanvar ayında Ankarada Jandarm Baş Komandanlığının Jandarm Komando Özəl Asayiş Komandanlığına aid tədris mərkəzində “Həssas nöqtə və şəxslərin qorunması” adlı kurs keçib. Həmin kurs çərçivəsində sürücülük üzrə bir neçə taktiki təlim mərhələsinə də cəlb olunaraq praktiki fəaliyyət elementlərinə yiyələnib. Bununla da Türkiyədən geriyə bir neçə sertifikatla qayıdıb.

Xüsusi təyinatlı olaraq o, hərbi xidmət dövründə müxtəlif idman növləri üzrə ya-



rışlarda iştirak edərək, qalib yerlərə sahiblənib. Bu nəticələrinə görə diplom və fəxri fərmanlara layiq görülüb.

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən müharibəsində Əfqan şərəfli döyüş yolu keçərək, ilk gündən erməni işğalçılarına qarşı öz qumbaraatan və avtomat silahları ilə qətiyyətlə vuruşub. Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin və Daxili Qoşunların xüsusi təyinatlıları ilə birlikdə, ayrı-ayrı qrupların tərkibində Murovdağdan başlayaraq, Cəbrayıl, Xocavənd və Xocalı rayonlarının ərazilərində bir sıra yaşayış məntəqələri, habelə yüksəkliklərin işğaldan azad edilməsi üzrə döyüş tapşırıqlarını cəsurluqla yerinə yetirib. Murovdağ döyüşlərində “Canavar sol” və “Canavar sağ” postları ələ keçirilərkən düşmənin bu mövqelərdəki canlı qüvvəsi məhv edilib, çoxlu sayda silah-sursat qənimət götürülüb. Götürülən KORD pulemyotu ilə Əfqan sərrast atəş açaraq ermənilərin bir neçə “KamAz” avtomobilini sıradan çıxarıb. Avtomobillərdən biri dərəyə aşıb. “KamAz”ların içərisində şəxsi heyət də olub. Daxili Qoşunların xüsusi təyinatlısı gizir Oruc Bağırovun snayper silahından dəqiq atəşi nəticəsində işğalçıların postlarından birində sursat yeşikləri alışıb və partlayıb. Beləliklə, həmin post susdurulub, oradan snayper təhlükəsi aradan qaldırılıb. Murovdağda döyüşərkən Əfqan barotravma alsa da, qospitala getməyib. Mürəkkəb relyefə malik bu ərazidə şəhidlərimiz və yaralılarımız olub. İşğalına son qoyulan mövqelərin müdafiəsi möhkəmləndirilib.

Cəbrayıl şəhəri, rayonun Daş Veysəlli və Daşkəsən kəndləri uğrunda döyüşlərdə də təcavüzkarlar döyüşçülərimizin həmlələri qarşısında davam gətirə bilməyiblər. Bu döyüşlər zamanı hərbi qulluqçularımızdan baş çavuş Məhəmməd Hüseynov şəhid olub, baş çavuş Tofiq Behbudlu isə yaralanıb. Əfqan Tofiqi 15 kilometrədək geriyə tək daşıyıb, daha sonra onu avtomobillə Əhmədbəylidəki hərbi qospitala çatdırıb. Cəbrayıl şəhərinin düşmən artilleriyası və tanklarından şiddətli atəşə tutulması nəticəsində xüsusi təyinatlı növbəti dəfə barotravma alıb. Silahdaşı baş çavuş Hüseyn Həsənov ona ilk yardım göstərib.

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Tuğ kəndi, eləcə də ətrafdakı yüksəkliklər uğrunda da şiddətli döyüşlər gedib. Ermənistan ordusunun bu istiqamətdəki bölmələri xeyli itki verərək texnika və silah-sursatlarını döyüş meydanında qoyublar. Həmin istiqamətdə döyüşlər zamanı bəzi hərbi qulluqçularımız şəhid olub və yaralanıblar.

Xocalı rayonunun Çanaqçı kəndinin işğaldan azad olunmasında da Əfqan iştirak edib. Kəndin ətrafında işğalçıların bir “Niva” avtomobili pusquya salınaraq vurulub, içərisində olan erməni komandiri və sürücüsü məhv edilib. Bir neçə gün Çanaqçının ətrafındakı yüksəkliyin müdafiəsində dayanıblar. Düşmənin əraziyə nəzarəti qaytarmaq cəhdi baş tutmayıb. Çanaqçı uğrunda döyüşlərdə hərbi qulluqçularımızdan baş əsgər* Kamran Fərəcov şəhidlik zirvəsinə ucalıb, bir neçə nəfər isə yaralanıb.

Oktyabrın 24-də Çanaqçı ətrafındakı yüksəklikdə düşmən snayperinin atəşi nəticəsində güllələr Əfqanın sol qol və sol bud nahiyələrini yaralayıb. Döyüşçüyə ilk tibbi yardım göstərilib, vəziyyətlə bağlı iki gün həmin yüksəklikdə qalıb. Bundan sonra döyüş zonasından təxliyyə edilib. Füzuli Müalicə-Diaqnostika Mərkəzində onun üzərində cərrahi əməliyyat aparılıb. Daxili Qoşunların Hərbi Qospitalında stasionar müalicədə olub. Qələbə xəbərini qospitalda eşidib.

2021-ci ilin iyun ayının 22-də Əfqan səhhəti ilə əlaqədar Daxili Qoşunların sıralarından ehtiyata buraxılıb, ona əlillik dərəcəsi verilib.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 18.12.2020-ci il, 24.12.2020-ci il, 29.12.2020-ci il, 24.06.2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Ə.Zaxmayev “Cəsur döyüşçü”, “Cəbrayılın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” medalları, III dərəcəli “Rəşadət” ordeni ilə və həmçinin, Azərbaycan Respublikası müdafiə nazirinin 24.12.2020-ci il tarixli aidiyyəti əmrinə əsasən, “Şücaətə görə” medalı ilə təltif olunub.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31.12.2020-ci il tarixli müvafiq əmri ilə baş çavuş Ə.Zaxmayevə zoğalı beret daşıma hüququ verilib.

Əfqanın qardaşı Rəhman Zaxmayev də Vətən müharibəsi iştirakçısıdır. Hər iki oğula ata nəsihətlərindən ən vacibi “müharibədə sinə gərib mərdliklə vuruşun, arxadan yaralansanız, geri qayıtmayın” olub. Onlar doğmalarının yanına alnıaçıq, üzüağ qayıdıblar. Ötən il avqustun 8-də Əfqan ailə qurub, hazırda Hərbi Qənimətlər Parkında işləyir.

Döyüş ruhu həyatda ən güclü hissdir. Bu hissin mənəvi gücünə sahiblənən Əfqan kimi oğullar qalib döyüşçü olmaq şərəfini yaşayırlar.

**Yalçın Abbasov**

# 2022-ci il Azərbaycanda “Şuşa İli” elan edilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2022-ci ilin “Şuşa İli” elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda Qarabağın tacı olan Şuşanın xalqımız üçün müqəddəs və əziz məkan olması qeyd olunub.

Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır.

Təməli 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulan və bu il 270 illiyi qeyd olunacaq Şuşa şəhəri zəngin inkişaf yolu keçmiş, Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni və ictimai-siyasi həyatında müstəsna rol oynamışdır.

Bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır.

Strateji mövqeyi ilə seçilən Şuşa Azərbaycana qarşı hərbi təcavüzə başlamış




Ermənistanın silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də işğala məruz qalmışdır. İşğal dövründə şəhərdəki yüzlərlə tarix və mədəniyyət yadigarı vandalizm aktları nəticəsində dağıdılmışdır.

Haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu.

Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır.

Bundan əlavə, Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələrin gerçəkləşdirilməsi sərəncamda öz əksini tapıb. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir.

Cıdır düzündə “Xarıbülbül” musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır.

Beləliklə, Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti, yüksək mədəni-mənəvi dəyəri nəzərə alınaraq, 2022-ci il Azərbaycan Respublikasında “Şuşa İli” elan edilib.

Bununla yanaşı, sərəncamın 2-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Şuşa İli” ilə bağlı müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

**Mətbuat xidməti**

# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞININ QORUNMASI BAŞLICA VƏZİFƏDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

17071 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti baş leytenantı Elçin Seyidov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.

Tibb xidməti baş leytenantı E.Seyidov bildirdi ki, gündəlik olaraq xidmət öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat”ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində



görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir. Tibb xidmətinin hərbi qulluqçuları-tibb məntəqəsində feldşer gizir Fərid Əlizadə və sanitar-təlimatçı, dezinfektor baş çavuş Sərdar Yunusov qoyulan tapşırıqları uğurla və vaxtında icra edirlər.

Xidmət rəisi söylədi ki, hərbi hissədə sanitar-gigiyenik vəziyyət qənaətbəxşdir. Hərbi qulluqçuların koronavirus infeksiyasına yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Şəxsi heyətin tam şəkildə vaksinasiya prosesində iştirakı təmin olunub.

Bundan əlavə, hər gün növbətçi həkim tərəfindən hərbi hissənin nəzarət-buraxılış məntəqəsində hərbi qulluqçuların temperaturu yoxlanılır, infeksiyadan qorunmaq üçün gigiyena qaydalarına riayət olunması barədə məsləhətlər verilir.

Həmçinin, qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi keçirilir, təzyiqləri ölçülür, sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

Həm vəzifə səlahiyyətini, həm də bir həkim kimi məsuliyyətini dərindən dərk edən tibb xidməti baş leytenantı Elçin Seyidov hərbi xidmətdə olduğu üçün fəxr etdiyini bildirdi və bundan sonra öz təcrübəsini artırmağı, peşə hazırlığını təkmilləşdirməyi qarşısına məqsəd qoyduğunu nəzərimizə çatdırdı.

**baş leytenant Nigar Ağayeva**

# SAĞLAMLIQ KEYFİYYƏTLİ QİDALANMADAN BAŞLAYIR

Daxili Qoşunlarda hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə fiziki hazırlıq məşğələləri, profilaktika və epidemiya əleyhinə tədbirlər müntəzəm olaraq keçirilir, sanitar-gigiyena qaydalarına əməl edilir. Hərbi qulluqçuların səhhətinin möhkəmləndirilməsi sağlam və keyfiyyətli qidalanmadan asılıdır. Bu baxımdan deyə bilərik ki, şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması son dərəcə vacibdir.

Ali Hərbi Məktəbin komandanlığı hərbi qulluqçuların keyfiyyətli və kalorili yeməklərlə qidalanmasını daima diqqət mərkəzində saxlayır. Hazırlanan xörəklərin keyfiyyəti isə tələblərə tam cavab verir. Əlbəttə ki, bütün bu işlərdə məktəbin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi mayor Sabir Əliyevin əməyi böyükdür. Nümunəvi xidməti, bilik və bacarıqları ilə fərqlənən hərbi qulluqçumuz xidməti fəaliyyəti zamanı daxili iş-



lər nazirinin, daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və göstərişlərindən irəli gələn vəzifələri məsuliyyətlə yerinə yetirir.

Xidmət rəisi şəxsi heyətin vaxtlı-vaxtında keyfiyyətli ərzaqla təmin olunmasına, eləcə də ərzaqların qorunub saxlanılmasına, yeməkxanada sanitar-gigiyenik qaydalara ciddi əməl edilməsinə, burada mövcud olan soyuducu və digər texniki avadanlıqların istismarına nəzarət edir.

Şəxsi heyətin qidalanmasının müvafiq rəhbər sənədlərin tələbləri əsasında aparıldığını söyləyən mayor S.Əliyev qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümü ilə əlaqədar olaraq, qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması məqsədilə kurs keçmiş ixtisaslı əsgər aşpazlarla bərabər işçilərin əməyindən də istifadə olunur. Mayor S.Əliyev onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını diqqətə çatdırdı. Əlavə olaraq bildirdi ki, işçi aşpazlardan Əminə Rəsulova, Narimə Quliyeva, Natavan Əmirova, Xavər Əsgərova, əsgər aşpazlardan isə İsmayıl Səfərov, Cəbrayıl Xəlilov, baş çavuş Rauf Məmiyev və çavuş Mansur Xasməmmədov üzərilərinə düşən vəzifələri məsuliyyətlə icra edirlər.

**gizir Ariz Aslanov**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏZİFƏLƏRİNİ MƏSULİYYƏTLƏ İCRA EDƏN HƏRBİ QULLUQÇU

Daxili Qoşunların 16076 saylı hərbi hissəsi döyüş xidmətinin aparılmasında ayıq-sayıqlıq göstərən, yüksək nizam-intizama malik hərbi qulluqçuları ilə fərqlənir. Onlar layiqincə xidmət edərək Daxili Qoşunların nüfuzunu hər zaman uca tuturlar.

Həmin hərbi qulluqçulardan biri də əsgər Röyal Hüseynlidir. O, 2002-ci il avqustun 28-də İmişli rayonunda doğulub. Orta təhsilini İmişli rayonunun Buludlu kənd orta məktəbində alıb. Hərbi xidmətdən öncə idmanın sərbəst güləş növü ilə məşğul olub. 2020-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda xidmətini 16076 saylı hərbi hissənin mühafizə bölüyündə davam etdirir. Ayıq-sayıq xidməti ilə fərqlənir. Ona həvalə olunan vəzifələrin icrasında məsuliyyətlidir. Döyüş və mənəvi-psixoloji hazırlığı qənaətbəxşdir. Hissə və bölük komandirləri tərəfindən mükafatlandırılıb.

Əsgər R.Hüseynli müddətli xidmətini başa vurduqdan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi



xüsusi vasitələrin tətbiqi dəstəsində xidmətini davam etdirmək arzusundadır.

**16076 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# XİDMƏTDƏ ƏZMKARLIQ GÖSTƏRƏN ƏSGƏR

Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin nizam-intizamı ilə fərqlənən hərbi qulluqçusu əsgər Tural Qurbanlı 1999-cu il sentyabrın 4-də Bakı şəhərində anadan olub. O, 2015-ci ildə Bakı şəhəri Alı Mustafayev adına 202 saylı orta məktəbi bitirib. 2017-ci ildə Kooperasiya Universitetinə qəbul olunub. 2021-ci ildə ali təhsilini başa vuran Tural iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda hərbi hissənin patrul taborunun patrul bölüyündə atıcı vəzifəsində xidmət edir.

Uşaq yaşlarından futbolla həvəskar səviyyədə məşğul olmuş Turalın ən böyük arzusu hərbi xidmət müddətini başa çatdırdıqdan sonra Daxili İşlər Nazirliyinin polis əməkdaşı kimi dövlətə xidmətini davam etdirməkdir.

Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən əsgər T.Qurbanlı bölük komandiri tərəfindən müsbət xarakterizə olunur. Xidmətə ciddi münasibətilə seçilir. Hərbi xidmətə həvəsi ilə yanaşı, lazım olduqda əsgər yoldaşlarına köməklik göstərməsi onun müsbət xüsusiyyətlərindəndir.



İntizamı ilə digər hərbi qulluqçulara nümunə olmağa çalışan hərbi qulluqçumuz vətənpərvərlik əqidəsinə sadiqdir. Daxili Qoşunların əsgəri olduğu üçün qürur duyan əsgər T.Qurbanlı həm də qalib ölkənin əsgəri olmağının sevincini yaşayır.

**17071 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

## Rusiya ordusuna “Gibka-S” kompleksi tədarük ediləcək

Rusiya ordusuna 2022-ci ildə “Gibka-S” ultra qısamənzilli hava hücumundan müdafiə (HHM) kompleksinin ilk partiyası təhvil veriləcək.



Bu barədə “Poliqon” Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən məlumat verib.

“Gibka-S” kompleksi günün istənilən vaxtında məhdud görünmə şəraitində belə aşağı hündürlüklərdə uçan təyyarələrə, helikopterlərə, pilotsuz uçuş aparatlarına və digər silah sistemlərinə qarşı tətbiq ediləbiləcək.

## Almaniya nüvə silahı daşıyan F-35 qırıcısı almağı planlaşdırır

Almaniya Müdafiə Nazirliyi köhnəlmiş “Panavia Tornado” təyyarəsinin dəyişdirilməsi planını nəzərdən keçirir. Bu barədə “Poliqon” Almaniya Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən məlumat verib.



Belə ki, NATO qarşısında götürdüyü öhdəliklərin bir hissəsi olaraq, Almaniya HHQ nüvə silahı daşıya bilən təyyarələrə malik olmalıdır. Əvvəllər bu funksiyaları xüsusi təkmilləşdirilmiş “Panavia Tornado” qırıcıları yerinə yetirirdilər. Lakin onların istismar müddəti başa çatmaq üzrə olduğundan dəyişdirilməsi zərurəti yaranmışdır.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan baş gizir Asəf İsayevin** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı kapitan Elvin Mustafayevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**